# Azərbaycan sahibkarlığın inkişafı üçün əlverişli ölkədir

## Azərbaycan Respublikası Sahibkarlar (işəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayevin www.yap.org.az saytına müsahibəsi

***- Məmməd müəllim, Azərbaycanda sahibkarlıq fəaliyyəti inkişaf edərək əhalinin həyat şəraitinin yaxşılaşmasında xüsusi rol oynayır. Ölkəmizdə müasir sahibkarlığın inkişafı barədə nə deyərdiniz?***

- Azərbaycanda müasir milli sahibkarlığın inkişafı XX əsrin 90-cı illərindən başlamışdır. Həmin dövrdə ümummilli lider Heydər Əliyev demokratik həyat tərzinin diktə etdiyi gerçəklik kimi bazar iqtisadiyyatı prinsiplərinə sadiq qalaraq Azərbaycanın yeni dövr üçün prioritetlərini müəyyənləşdirmiş və ölkənin iqtisadi siyasətinin təməlini qoymuşdur.

Azərbaycanda ardıcıl həyata keçirilən islahatlar nəticəsində bütün istiqamətlərdə olduğu kimi, sosial-iqtisadi sahədə də uğurlu nəticələr əldə edilmiş, sahibkarlığın inkişafı istiqamətində də bir sıra önəmli addımların atılması nəticəsində, sağlam biznes mühitinin daha da əlverişli olmasına real şərait yaranmışdır. Son illərdə Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi, onun neft sektorundan asılılığının azalması, yeni istehsal müəssisələrinin istifadəyə verilməsi, işsizliyin aradan qaldırılması və sair sosialyönümlü problemlərin həlli sahibkarlığın inkişafı ilə əhəmiyyətli dərəcədə bağlıdır.

Ümumiyyətlə, Azərbaycanda sahibkarlıq fəaliyyəti inkişaf edərək əhalinin həyat şəraitinin yaxşılaşmasında xüsusi rol oynamışdır. Belə ki, ötən 6 ay ərzində ölkə üzrə muzdla işləyənlərin orta aylıq əməkhaqqı 4 faiz artaraq 457 manatı keçmişdir. 7 ayın nəticələrinə görə, əhalinin pul gəlirləri isə 6,4 faiz çoxalaraq 23,6 milyard manat olmuşdur

Onu da qeyd edək ki, Azərbaycanda əhalinin gəlirlərinin artımı dünyada baş verən iqtisadi-siyasi böhran, bununla bağlı neftin qiymətinin iki dəfədən cox aşağı düşdüyü bir şəraitdə baş vermişdir. Hesablamalara əsasən, Azərbaycanda ilin əvvəlindən inflyasiyanın həcmi cəmi 3,7 faiz olmuş, qeyri-ərzaq mallarının qiymətləri və xidmət tarifləri dəyişməmişdir.

Bu gün sahibkarlığın inkişafı ilə bağlı Azərbaycan dövləti öz iradəsini nümayiş etdirir. Sahibkarlara daim diqqət göstərilir, onlara güzəştli kreditlərin, texnikanın lizinq yolu ilə verilməsi, fermerlərə subsidiyaların ayrılması, bütövlükdə kənd təsərrüfatı, eləcə də sahibkarlığı stimullaşdıran Dövlət Proqramlarının qəbul edilməsi və onların müvəffəqiyyətlə icra olunması ölkədə sahibkarlığın inkişafına münbit şərait yaratmışdır.

Azərbaycanda 90-cı illərin ortalarından başlayaraq ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə iqtisadiyyatın müxtəlif sahələrində həyata keçirilən islahatlarla planlı iqtisadi modeldən liberal bazar iqtisadiyyatına keçid təmin edilib, sənaye, xidmət və kənd təsərrüfatı sahələrində real irəliləyişə nail olunub.

***- Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bütün sahələrdə olduğu kimi ölkə sahibkarlarına da diqqət və qayğısını əsirgəmir. Ölkədə sahibkarlığın perspektivləri barədə fikirlərinizi bilmək istərdik.***

- İlk növbədə qeyd edək ki, Azərbaycan sahibkarlığın inkişafı üçün əlverişli ölkədir. Prezident İlham Əliyevin bu sahəyə göstərdiyi diqqət və qayğının fonunda sahibkarlar səmərəli fəaliyyət göstərmək imkanı əldə ediblər. Ölkədə həyata keçirilən iqtisadi siyasət sahibkarlığın inkişafının sürətləndirilməsinə, ölkənin sosial-iqtisadi problemlərinin həllində sahibkarlığın rolunun gücləndirilməsinə, bu istiqamətdə dövlət qayğısının artırılmasına və ən əsası mövcud potensialın reallaşdırılmasına yönəlmişdir. Bu məqsədlə qanunvericilik bazasının təkmilləşdirilməsi, bürokratik maneələrin aradan qaldırılması, maliyyə dəstəyinin göstərilməsi və digər sahələrdə mühüm əhəmiyyətli addımlar atılmışdır.

Son 20 il ərzində ölkədə sahibkarlıq fəaliyyətini tənzimləyən prosedur və qaydalar xeyli liberallaşdırılmış, sahibkarlığa dövlət maliyyə yardımı mexanizmi işə salınmış, ölkədə bəzi məhsullara ixrac rüsumları ləğv edilmiş, idxalda rüsumların 15 faizlik maksimal həddi müəyyənləşdirilmişdir. Eyni zamanda, respublikada tətbiq olunan vergi yükü azaldılmışdır.

Prezident İlham Əliyevin "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 3 mart 2014-cü il tarixli Fərmanı sahibkarlığın inkişafına göstərilən diqqət və qayğının, bu sahəyə verilən böyük önəmin, özəl bölməyə dövlət dəstəyi tədbirlərinin ardıcıllığının göstəricisi, sahibkarlığın inkişafının yeni mərhələsinin hüquqi əsaslarını özündə əks etdirən mühüm konseptual sənəddir. Dövlət başçısının bu Fərmanı Azərbaycanda biznes mühitinin daha da yaxşılaşdırılması, onun ən qabaqcıl təcrübələr əsasında təkmilləşdirilməsi istiqamətində mühüm tədbirlərin həyata keçirilməsi üçün əsas olmaqla, qarşıdakı illərdə sahibkarlığın inkişafı üçün geniş imkanlar açır. Fərmanla müəyyənləşdirilmiş vəzifələr aidiyyəti dövlət qurumları ilə birlikdə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla sahibkarlıq sahəsində 8 istiqamət üzrə geniş islahatların aparılmasını tələb edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 31 avqust 2015-ci il tarixli "Dövlət xidmətlərinin göstərilməsində şəffaflığın artırılması, yaşayış yeri üzrə qeydiyyat və lisenziyalaşdırma prosedurlarının elektronlaşdırılması sahəsində bəzi tədbirlər haqqında" Fərmanı özəl sektorun daha da inkişafına təkan verəcəkdir.

Görülmüş tədbirlərin nəticəsidir ki, 2014-cü ildə ölkə iqtisadiyyatına yönəldilmiş investisiyaların həcmi 27 milyard ABŞ dolları olmuş, bunun da 16 milyard ABŞ dolları daxili investorların vəsaiti olmuşdur. 2015-ci ilin 6 ayı ərzində isə iqtisadiyyat 5,7 faiz artmışdır. Qeyri-neft sektorunda 9,2 faiz, sənaye istehsalı isə təxminən 4 faiz artmışdır. Qeyri-neft sənayesinin 14 faizdən çox artması son illərdə sənayeləşmə, yeni sənaye zonalarının yaradılması ilə bağlı görülmüş işlərin nəticəsidir.

Azərbaycanda əhalinin pul gəlirləri ənənəvi olaraq inflyasiyanı üstələyir və hesabat dövrün də bu gəlirlər 6,2 faiz artmışdır. Kənd təsərrüfatı 7,3 faizdən çox artmışdır ki, bu, son illər ərzində ən yüksək artım tempi deməkdir. Bu ilin 6 ayında ölkəmizdə 60 minə yaxın yeni iş yeri açılmışdır ki, onlardan 48 mini daimi iş yeridir. Azərbaycanda, ümumiyyətlə, son 12 il ərzində 1 milyon 400 min iş yeri açılmışdır ki, onlardan 1 milyonu daimi iş yeridir. Bunun hesabına Azərbaycanda işsizlik keçən ilin yekunlarına görə 5 faiz səviyyəsində olmuşdur.

Bu müddətdə sahibkarlığın maliyyə təminatı yaxşılaşmış, güzəştli kreditlərin həcmi artmışdır. Ümumiyyətlə, bu ilin 6 ayı ərzində Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına 2700 sahibkarlıq subyektinə 88.4 milyon manat güzəştli kredit verilmişdir.

Eyni zamanda əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramının icrası davam etdirilmiş, quşçuluq, heyvandarlıq, taxılçılıq, üzümçülük təsərrüfatları, kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü, saxlanması, emalı və satışı kompleksləri, aqroservislər yaradılmış, su təminatı və meliorativ tədbirlər görülmüş, bir sıra ərzaq məhsulları üzrə daxili istehsal artmış, mövsümlə əlaqədar istehlak qiymətləri kəskin dəyişməmiş və bu sahədə sabitliyə nail olunmuşdur.

Həyata keçirilən tədbirlər, ölkə Prezidenti tərəfindən təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında müəyyən olunan hədəflər bir daha göstərir ki, bütün sahələri əhatə edən irimiqyaslı tədbirlərin həyata keçirilməsi bundan sonra da ölkəmizin davamlı inkişafını, onun dünyada mövqeyinin daha da möhkəmlənməsini və xalqımızın sosial-iqtisadi vəziyyətinin davamlı olaraq yaxşılaşmasını təmin edəcəkdir.

***- Azərbaycan Sahibkarlar Konfederasiyası tərəfindən görülən işlər barədə məlumat verməniz xahiş edirik.***

- Bildiyiniz kimi, hazırda Azərbaycan sahibkarlığı özünün inkişaf dövrünü yaşayır. Belə şəraitdə Konfederasiya ölkədə iş adamlarının maraqlarından cıxış edən və sahibkarlığın inkişafına dəstək verən ümumrespublika birliyidir. O, özündə minlərlə sahibkarlıq subyektini, o cümlədən 70-ə qədər assosiasiya və birlikləri birləşdirir.

Özəl sektorun inkişaf etdirilməsi üçün yeni kadrların hazırlanması sahəsində əməkdaşlığın davam etdirilməsi məqsədilə Azərbaycan Sahibkarlar Konfederasiyası Təhsil Nazirliyi ilə əməkdaşlıq edir. Konfederasiyamız ilə Təhsil Nazirliyi arasında ötən il imzalanmış Anlaşma Memorandumu çərçivəsində mütəmadi müzakirələr aparılır. Cari il ərzində Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası ilə Dövlət Sosial Müdafiə Fondu arasında əməkdaşlıq müqaviləsi də imzalanıb.



Azərbaycan Sahibkarlar Konfederasiyası əvvəlki illərdə olduğu kimi, cari ildə də İqtisadiyyat və Sənaye Nazirliyinin təşkilatçılığı ilə keçirilmiş tədbirlərdə, sərgilərdə, Vergilər Nazirliyinin keçirdiyi seminarlarda, xarici ölkələrdən gəlmiş iş adamları ilə görüşlərdə, Azərbaycanın rayonlarında və iqtisadi zonalarında keçirilmiş konfrans və forumlarda, səfirliklərdə keçirilmiş qəbullarda, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkil etdiyi elmi-praktik konfranslarda, hüquqi məsələlərin müzakirəsində, videokonfranslarda, məzun yarmarkalarında və digər görüşlərdə yaxından iştirak etmişdir.

ASK xarici ölkələrdə və eyni zamanda ölkədə keçirilən tədbirlərdə fəal iştirak edir. "Daşınar əmlaklara əsaslanan kreditləşmə" mövzusunda keçirilmiş konfrans, "Korporativ Sosial Məsuliyyət: mövcud vəziyyət, problemlər və perspektivlər" mövzusunda dəyirmi masa, "Yeni imkanlar yaradan çağırışlar" adlı seminar olduqca faydalı olmuşdur.

Azərbaycan Sahibkarlar Konfederasiyası zamanın tələblərini nəzərə alaraq, gündəlik fəaliyyətini durmadan təkmilləşdirir, müasir biliklər təcrübəsindən, modern idarəçilik üsullarından real şəkildə bəhrələnməyə çalışır. Əminliklə bildirirəm ki, bütün bunlar öz real bəhrəsini verəcəkdir.

***- Məmməd müəllim, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının beynəlxalq əlaqələri haqqında nə deyə bilərsiniz?***

- Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının sahibkarlarla, dövlət orqanları, yerli qurumlarla birgə işi ilə yanaşı, beynəlxalq qurumlarla, o cümlədən Beynəlxalq İşəgötürənlər Təşkilatında, Sənayeçilərin və Sahibkarların Beynəlxalq Konqresində üzvlüyü davam etdirməklə, respublikada fəaliyyət göstərən bir çox dövlətlərin və Azərbaycanın xaricdəki səfirlikləri ilə, beynəlxalq təşkilatlarla əməkdaşlığı daha da genişləndirilmişdir.

Keçən müddət ərzində konkret olaraq Konfederasiya Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Biznes Şurasının, Türkdilli Dövlətlər Şurasının tədbirlərinə qatılmış, konfederasiyanın xarici ölkələrdəki yeni nümayəndəliklərinin yaradılması, mövcud olanlarla əməkdaşlığın inkişaf etdirilməsi, bir sıra beynəlxalq təşkilatlar, diplomatik nümayəndəliklər, qeyri-hökumət təşkilatları, biznes qurumların nümayəndələri ilə işgüzar əlaqələr inkişaf etdirilmiş, Konfederasiya "Biznes Konsaltinq" MMC-nin bir sıra xarici biznes qurumlarla əməkdaşlıq əlaqələrinin qurulması və birgə biznes görüşlərin təşkili həyata keçirilmiş, müxtəlif dövlət qurumlarının təşkil etdikləri iclaslarda Konfederasiya təmsil olunmuşdur.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası ölkəmizin biznes mühiti barədə beynəlxalq aləmə geniş məlumatların verilməsi, ölkələrarası biznes əlaqələrinin genişləndirilməsi sahəsində ardıcıl fəaliyyət göstərməkdədir. Bu istiqamətdə ASK-nın xarici dövlətlərdə açılmış rəsmi nümayəndəliklərinin fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan cari ildə ASK-nın xarici dövlətlərdə nümayəndəliyinin fəaliyyətə başlaması əlamətdar hadisə hesab olunmalıdır.

Bu müddətdə Konfederasiya rəhbərliyi Azərbaycanda fəaliyyət göstərən Almaniya, Türkiyə, Rusiya, Macarıstan, Bolqarıstan, Çin, Hindistan, İran və digər xarici ölkələrin səfirləri ilə görüşmüşdür,

Ümumiyyətlə, Konfederasiya beynəlxalq təşkilatlarla, o cümlədən Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Avropa Birliyinin Komissiyaları və təşkilatları ilə, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Biznes Şurası ilə əməkdaşlığı daha da genişləndirmişdir.

Yerli sahibkarların potensial imkanlarının reallaşdırılmasına dəstək və biznesin müasir formalarının təşviq edilməsi, xarici əlaqələrin genişləndirilməsi məqsədilə 2015-ci ilin 8 ayı ərzində ölkə sahibkarlarının iştirakı ilə Azərbaycanda biznes forum, sərgi və konfrans keçirilmiş, eləcə də qeyri-neft məhsullarının satış bazarlarının genişləndirilməsi məqsədilə Amerika, Avropa, Yaxın Şərq ölkələrində, Rusiyada keçirilmiş sərgilərdə Azərbaycan sahibkarlarının iştirakı təmin edilmişdir.

Azərbaycan Sahibkarlar Konfederasiyasının nümayəndələri 4 sentyabr 2015-ci il tarixdə Ankara şəhərində kecirilən Türkiyə Respublikasının sədrlik etdiyi və dünyanın iqtisadi cəhətdən ən cox inkişaf etmiş 20 ölkəsini əhatə edən G20 qrupuna üzv və dəvət edilən ölkələrin əmək, məşğulluq, maliyyə nazirlərinin və mərkəzi bank rəhbərlərinin iki gün davam edən toplantısında iştirak etmişlər. Tədbir çərçivəsində Türkiyə Borsalar və Odalar Birliyi (TBOB) ilə əməkdaşlığın daha da genişləndirilməsi məqsədilə İstanbul Borsalar və Odalar Birliyinin sədri İbrahim Çağlar ilə görüş keçirilmiş, görüş zamanı hər iki təşkilat arasında gələcək perspektivlər müzakirə olunmuş, TBOB-un təcrübəsindən bəhrələnmək imkanlarına dair razılıq əldə edilmişdir.

Qeyd edim ki, son illər Konfederasiya ölkəmizdə və dünyanın ayrı-ayrı dövlətlərində fəaliyyət göstərən müxtəlif təşkilatlarla, o cümlədən işəgötürənlər təşkilatları və assosiasiyalar ilə 78-dən çox əməkdaşlıq müqaviləsi imzalamışdır. Bu müqavilələr ölkələrimiz arasında biznes əlaqələrinin genişlənməsi və daha səmərəli nəticələr əldə olunması istiqamətində mühüm rol oynayır.

⇨ Davamı 19-cu səhifədə

# Azərbaycan sahibkarlığın inkişafı üçün əlverişli ölkədir

## Azərbaycan Respublikası Sahibkarlar (işəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayevin www.yap.org.az saytına müsahibəsi

⇨ Əvvəli 14-cü səhifədə

***- Məmməd müəllim, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası ölkəmizdə sahibkarlığin inkişafı ilə bağlı daha hansı təklifləri irəli sürmək niyyətindədir?***

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında iqtisadi məsələlərə və 2016-cı ilin dövlət büdcəsinin hazırlığı işlərinə həsr edilmiş müşavirədə ölkə Prezidenti qeyd etdi ki, sahibkarlığın daha sürətli inkişafı üçün addımlar atılacaq. Sevindirici haldır ki, əvvəlki dövrdə başlanmış və hazırda davam edən layihələr öz bəhrəsini verir, qeyri-neft potensialımız daha da artır, sahibkarlığın inkişafı üçün bütün imkanlar vardır. Ölkə Prezidenti tərəfindən təsdiq edilmiş "Azərbaycan-2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası ölkəmizin əldə etdiyi nailiyyətlərin növbəti illərdə daha da möhkəmlənməsini, növbəti 10 ildə qeyri-neft sektoru hesabına ümumi daxili məhsulun 2 dəfə artırılması nəzərdə tutulur. Qarşıda duran hədəflərə nail olunması üçün Azərbaycan Sahibkarlar Konfederasiyası müvafiq tədbirlərin görülməsini nəzərdə tutmuşdur.

2015-ci ilin Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə "Kənd təsərrüfatı ili" elan edilməsi bir sıra dövlət qurumları, həmçinin Kənd Təsərrüfatı Nazirliyi, o cümlədən Azərbaycan Sahibkarlar Konfederasiyası qarşısında ciddi vəzifələr qoyub. Kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətinin artırılması, yeni emal müəssisələrinin yaradılması, bu sahədə çalışan sahibkarlara dövlət tərəfindən xüsusi köməyin göstərilməsi bu qəbildən olan tədbirlərdəndir.

Artıq kənd təsərrüfatı sahəsində yeni hədəflərə nail olmaq məqsədilə Azərbaycan Sahibkarlar Konfederasiyası Kənd Təsərrüfatı Nazirliyi ilə yeni əməkdaşlıq müqaviləsinin imzalanmasını nəzərdə tutur. Bağlanacaq müqaviləyə əsasən, ölkəmizdə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, istehsalçılara zəruri xidmətlərin göstərilməsi, baytarlıq, bitki mühafizəsi və karantini, torpaqların səmərəli istifadəsi də daxil olmaqla aqrar bölmədə dövlət siyasətinin işlənib hazırlanmasında və həyata keçirilməsində əməkdaşlıq etmək kimi vəzifələr qarşıya qoyulacaq.

Onu da qeyd edim ki, ASK-nın tərkibində "Aqrar inkişaf və ailə kəndli təsərrüfatları ilə iş komissiyası" fəaliyyət göstərir. ASK-nın nümayəndələri müxtəlif regionlarda, xüsusilə də Ağcabədi, Xaçmaz regional nümayəndəliklərində fermerlərin könüllü birgə təsərrüfatçılığının təşviqi istiqamətində təbliğat xarakterli iş aparırlar. 2015-ci ilin ilk rübündə Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, həmçinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən elan edilən layihə müsabiqəsinə qatılmış və "Aqrar sahədə yeni yanaşmalar" layihəsi üzrə müsabiqənin qaliblərindən biri olmuşdur. Layihədən irəli gələn öhdəlikləri nəzərə alaraq cari il ərzində Ağcabədi və Xaçmaz rayonlarında Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının təşkilatçılığı ilə "Fermer təsərrüfatlarında maliyyə mənbələrinə çıxış və sığortanın təşkili" mövzusunda təlim keçirilmişdir.

Məlum olduğu kimi, Azərbaycan Hökuməti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Sahibkarlar Konfederasiyası arasında Baş Kollektiv Saziş imzalanmış və bu sazişlə tərəflərin vəzifələri müəyyən edilmişdir. Lakin bu orqanlar arasında öhdəliklərin daha da uğurlu icrası üçün tərəflər arasında əlaqəli fəaliyyətin gücləndirilməsi vacibdir.

Qadın sahibkarlığın inkişaf etdirilməsi, texniki peşə təhsilinin daha da yaxşılaşdırılması, ixraca dəstək verilməsi sahəsində təkliflərimiz vardır. Bir sözlə, dövlətlə özəl sektor arasında yeni, çox sağlam münasibətlər formalaşır. Artıq sahibkarlar bunu yaxşı bilir ki, dövlət siyasətinin icrası nəticəsində sahibkarlar üçün yeni imkanlar yaranır. Cənab Prezident yeni müəssisələrin açılışında şəxsən iştirak edərək, onlarda böyük ruh yüksəkliyi yaradır. Bu da gələcəkdə daha yaxşı işləmək əzmini artırır.

Çalışacağıq ki, ildə bir günün sahibkarlar günü kimi təsis edilməsi üçün hökumət qarşısında təkliflə çıxış edək. Azərbaycan Sahibkarlar Konfederasiyası olaraq ölkədə özəl sektorun inkişafına dəstək olacaq yeni təşəbbüslərlə çıxış edəcəyik. Təbii ki, Konfederasiya öz fəaliyyətini daha da canlandırmalı, müasir dövrün tələbləri ilə uyğunlaşan iş ahənginə malik olmalıdır.

Biz Azərbaycan Sahibkarlar Konfederasiyası olaraq Prezident İlham Əliyevin həyata keçirdiyi ardıcıl və məqsədyönlü iqtisadi siyasəti dəstəkləyir, ölkənin dinamik inkişafına yönəlmiş bütün tədbirlərin həyata keçirilməsi prosesində yaxından iştirak etməklə respublikamızın uğurlarına öz töhfəmizi verməyə hazırıq.